

**Rəhman Rasimoğlu:**

**"Qara zurna ruhumuzun qan yaddaşıdır. Mən bu ruhla böyüdüm. Bu ruhla qidalanıram. Bu ruha tapınmaqla milli ifaçılıq sənətimizi yaşadıram... Qara zurnada ifa olunan cəngi ruhumuz, milli bütünlüyümüz və dövlətçiliyimizin inkişaf etməsidir".**

# İstedad və zəhmət

Son illər Azərbaycan iqtidarının apardığı ən uğurlu siyasətlərdən biri də milli dəyərlərimizin inkişaf etdirilməsi, xalq musiqisi sənətinin yüksəlməsi, el sənətkarlarına dövlət qayğısının artırılmasıdır. Neçə vaxt idi ki, nəinki televiziya və radio kanallarımızda, hətta toylarımızda belə qara zurnanın, balabanın, tütəyin səsi-sədası çox az-az eşidilirdi.

Respublika prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO və İSESKO-nun sülhməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycanda milli mədəniyyətimizə göstərdikləri dəyərli qayğının sayəsində artıq bütün dövlət əhəmiyyətli tədbirlərdə saz, balaban, tütək, ney, çubuq nağara və digər milli alətlərimizə daha tez-tez rast gəlmək mümkündür. Bununla yanaşı, qədim, unudulmuş, yaddaşlardan silinmiş bir sıra musiqi alətlərimiz bərpa olunaraq xalq çalğı alətləri ansambllarında yenidən özünün layiqli yerlərini tutublar. Milli bəstəkarlıq məktəbimizin inkşafına indi daha böyük təkan verilməkdədir.

Bütün bunlar təbii olaraq xalq yaradıcılığı ilə peşəkar səviyyədə məşğul olan sənətkarları daha da ruhlandırır. Sənətdə özünəməxsus istedadı ilə seçilən belə sənətkarlardan biri də Rəhman Rasimoğludur. Milli nəfəsli çalğı alətlərində professional ifaçılar arasında R.Rasimoğlunu tanımayan yoxdur.

Ələsgərovlar nəsli Şirvan aşıq sənəti məktəbini qoruyub yaşadan nadir ailələrdən biridir. Bu ailə yaşı yüz əlli ildən çox bir dövrü əhatə edən qara zurna, balaban, ney kimi nəfəsli çalğı alətlərinin ifaçılığı ilə hər zaman bu sənətin zirvəsində dayanıblar. Rəhman hələ erkən yaşlarından özünün musiqi istedadı ilə çoxlarını heyran edib. Atası, respublikanın əməkdar mədəniyyət işçisi Rasim Ələsgərov bu istedadı gördükdən sonra ailə ənənəsinin yaşadılması üçün ona sənətin bütün sirlərini öyrətmişdir. Rəhman hələ çox kiçik yaşlarından sağlığında ustad aşıq kimi məşhur olan Aşıq Məmmədağanı, Aşıq Bacatı, Aşıq Sərbəti, Aşıq Yanvarı müxtəlif tədbirlərdə və mərasimlərdə müşayiət etmişdir. Atası Rasim Ələsgərov qırx ildən artıqdır ki, Azərbaycanda bütün el şənliklərində, dövlət tədbirlərində insanları qara zurnanın sehrinə ürcah etməklə yanaşı, həm də milli musiqimizin daha da sevilməsi üçün çalışır. Rasim müəllim Şamaxı rayon mədəniyyət evində bədii rəhbəri olduğu "Şirvan" Folklor Zurnaçılar Dəstəsini otuz ildən çoxdur ki, qoruyub yaşadır. Bölgələrimizdə bunca uzunömürlü ikinci musiqi kollektivi yoxdur. Rəhman məhz belə bir möhtəşəm məktəbdə ustad kimi yetişibdir.





Unudulmaz görüş

Rəhman Rasimoğlu istedadının çiçəkləndiyi bir vaxtda Bakıya köçmək qərarını verib. Çünki qara zurnanın şərəfini qorumaqla yanaşı, həm də bu misilsiz alətin musiqi kollektivlərində də yer almasında israrlı olub. "Natiq" Ritm Qrupunda, Məcnun Kərimovun bədii rəhbəri olduğu Qədim Xalq Çalğı Alətləri ansamblında solist kimi çalışıbdır. Hal-hazırda ustad sənətkarların xeyir-dualarının sayəsində zurnaçılardan ibarət "Azərbaycanım" Cəngi Folklor Qrupunun bədii rəhbəridir.

Rəhman Rasimoğlu qara zurnada xalq musiqi ənənələrinə söykənən bir sıra qəhrəmanlıq havaları ilə zəngin olan musiqi əsərləri yaradıb. Onlardan "Dədə Qorduq" dastanının 1300 illiyinə həsr olunmuş "Dədə Qorqud", "Azərbaycan", ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Ulu Heydər cəngisi", hörmətli prezidentimiz İlham Əliyevin Heydər Əliyev irsinin ən layiqli davamçısı olması münasibətilə "İlhamla irəli", "Odlar yurdu", "Çıraq", "Qobustan qayaları", "Məlhəm" kimi qəhrəmanlıq kompozisiyalarının yaradıcısıdır. Rəhman Rasimoğlu "Azərbaycanım" adlı kompakt diskini dinləyicilərin ixtiyarına vermişdir.

Bununla yanaşı onun ifasında lentə alınmış xalq havaları, aşıq musiqisi ölkə televiziya və ra-



Buxarest şəhəri, 2007-ci il

xalq havaları, aşıq musiqisi ölkə televiziya və radio kanallarında səslənməkdədir. O, həm də milli musiqi alətlərimizin təkmilləşməsi istiqamətində elmi ixtiralar üzərində çalışır. İlk dəfə olaraq qara zurnada səsoyadıcı qarğı parçasını kiçik plastik boru ilə əvəz etməklə bu çalğı alətini daha da təkmilləşdirmişdir.

Bununla da qara zurnada ifaçıların fiziki cəhətdən qarşılaşdıqları çətinlikləri dəf edə bilib. Onun bu ixtirasına Azərbaycan Dövlət Milli Konservatoriyasının və Bakı Musiqi Akademiyasının Elmi Laboratoriyasında, Elmi Şurada baxılmışdır. Elmi Şuranın üzvlərindən Milli Konservatoriyanın rektoru, professor, Xalq artisti Səyavuş Kərimi, professor, xalq artisti Ramiz Quliyev, elmi işlər üzrə prorektor Vaqif Əbdülqasımov, professor, əməkdar artist, Qədim Xalq Çalğı Alətləri Ansamblının bədii rəhbəri Məcnun Kərimov, Milli Konservatoriyanın Laboratoriyasının Elmi Tədqiqat işləri üzrə müdiri, sənətşünaslıq namizədi Abbasqulu Nəcəfzadə, Azərbaycan Aşıqlar Birliyinin sədri, Xalq şairi Zəlimxan Yaqub və bir çoxları bu ixtiraya yüksək elmi rəy vermişlər. 2009-cu ildə isə R. Rasimoğluna bu ixtirasına görə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi tərəfindən müəlliflik hüququ verilmişdir.

Rəhman Rasimoğlu hər zaman milli musiqimizin yaşadılması, dövlət tədbirlərinin yüksək səviyyədə keçirilməsində yaxından iştirak edir. O, cəngi nəfəsli qara zurnası ilə müntəzəm olaraq hərbi hissələrdə konsertlər verərək gənc əsgərlərimizdə milli vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur. R. Rasimoğlu bütün rayon və şəhərlərimizdə gənclərin sağlamlıq mərkəzi kimi dəyərləndirilən Olimpiya Komplekslərinin açılış mərasimlərində keçirilən konsert tədbirlərində iştirak edir. R. Rasimoğlu 1987-ci ildə, hələ 16 yaşındaykən Moskvada keçirilmiş Xalq Yaradıcılığı 2-ci festifalının laureatı olmuşdur. 2004-cü ildə Azərbaycan Dövlət Milli Konservatoriyasının xətti ilə Tayvanda keçirilən "Dünya Ritm-Foklor Festifalı"nda iştirak etmiş və bu mötəbər tədbirin diplomuna layiq görülmüşdür.

2007-ci ildə Rumıniyanın paytaxtı Buxarest şəhərində Azərbaycan Respublikasının prezidenti, hörmətli İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun birgə iştirak etdikləri ümummilli lider, müasir Azərbaycan dövlətinin memarı, ulu öndər Heydər Əliyevin abidəsinin, onun şərəfinə ucaldılmış memarlıq kompleksinin və parkın açılış tədbirində iştirak etmişdir. Bütün bunlarla yanaşı, zurna və balaban kimi çətin ifa olunan nəfəsli musiqi aləti sahəsində gənc kadrların hazırlanmasında da təmənnasız olaraq xidmət göstərir.

***Rəhman Rasimoğlunu digər nəfəsli milli musiqi alətlərində ifa edənlərdən fərqləndirən cəhətlərdən biri də qara zurna və balabanda Şirvan, Qazax, Göyçə, Naxçıvan, Gəncə, Qarabağ, Borçalı, Təbriz ifaçılıq məktəblərinin bütün yaxşı ənənələrini öz ifaçılığında birləşdirməsidir. Qara zurnada belə bir yenilik heç bir ifaçıya müyəssər olmayıb...***

**• Ənvər Yusifoğlu,**
***sənətşünas***